

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 119 (23.030)

*29 iyun 2018-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## B.S.Bayramovun Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bəhruz Surxay oğlu Bayramov Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 iyun 2018-ci il*

## “Naxçıvan” Universitetində III Beynəlxalq Gənclik Araşdırmaları Konqresinin açılışı olub

***İyunun 28-də “Naxçıvan” Universitetində III Beynəlxalq Gənclik Araşdırmaları Konqresinin açılış mərasimi keçirilib.***

Əvvəlcə Azərbaycan və Türkiyə Respublikalarının Dövlət himnləri səsləndirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirib ki, bu gün III Beynəlxalq Gənclik Araşdırmaları Konqresi öz işinə başlayır. Muxtar respublikada ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət gənclər siyasəti uğurla davam etdirilir. Gənclərin hərtərəfli inkişafı, asudə vaxtlarının səmərəli təşkili, fiziki sağlamlığının qorunması diqqətdə saxlanılır, zəruri infrastruktur yaradılır. Görülən işlərin nəticəsidir ki, muxtar respublikada yüksək intellektli, vətənpərvər, milli düşüncəyə malik gənclər formalaşır. Onlar müxtəlif sahələrdə uğurlar qazanır, Azərbaycanın adını daha da yüksəklərə qaldırırlar. Məhz bu amillər nəzərə alınaraq Naxçıvan şəhəri 2018-ci il üçün Gənclər Paytaxtı seçilib. Bununla bağlı olaraq ilin əvvəlindən başlayaraq silsilə tədbirlər həyata keçirilir. III Beynəlxalq Gənclik Araşdırmaları Konqresinin də Naxçıvan şəhərində keçirilməsi Naxçıvan Gənclər Paytaxtı tədbirlərinə bir töhfədir. Konqresin əsas məqsədi gəncliyin inkişafına töhfə verməkdir. III Beynəlxalq Gənclik Araşdırmaları Konqresinin gənclərlə iş sahəsində fəaliyyətin daha da yaxşılaşdırılması istiqamətində məhsuldar olacağına əminliyimizi bildirir, konqresin işinə uğurlar arzulayırıq.







Konqresin Azərbaycan tərəfindən rəhbəri, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu çıxışında bildirib ki, dövlət gənclər siyasəti muxtar respublikamızda uğurla davam etdirilir, gənclərin təhsili, sağlamlığı, asudə vaxtlarının təşkili üçün mühüm tədbirlər həyata keçirilir. Bu istiqamətdə görülən işlərdən biri də gənclərin sosial problemlərinin, o cümlədən mənzil-məişət məsələlərinin həllidir. Bu sahəyə göstərilən dövlət qayğısının nəticəsidir ki, indi dövlətimiz tərəfindən gənclər üçün yeni yaşayış binaları tikilir, gənc ailələrin mənzillə təmin olunması diqqət mərkəzində saxlanılır. III Beynəlxalq Gənclik Araşdırmaları Konqresində də gənclərin problemləri bir daha araşdırılacaq və onların mümkün həlli yolları tədqiq olunacaqdır.

Konqresin Təşkilat Komitəsinin sədri Zəkəriyyə Bingöl çıxışında bildirib ki, III Beynəlxalq Gənclik Araşdırmaları Konqresi gənclərimizin müxtəlif problemlərinin həllində yeni yolların tapılmasına, bu sahədə araşdırma aparan elm adamlarımızın tədqiqat işlərini təqdim etməsinə imkan verir. Türkiyədə, eləcə də Naxçıvanda gənc əhali sayı yüksəkdir. Bu, bizim gənclərlə bağlı gələcəkdə atacağımız addımlarda böyük əhəmiyyət daşıyır. Qeyd olunub ki, konqres ildən-ilə daha çox iştirakçı kütləsi qazanır. Türkiyədə Marmaris və Fethiyeden sonra Naxçıvanda gənclərlə bağlı belə bir konqresin təşkil olunmasının böyük əhəmiyyəti var. Gələcəkdə digər türk dövlətlərində də bu cür tədbirlərin keçirilməsini davam etdirəcəyik.

Keçmiş İstanbul və Şanlıurfa millət vəkili, Baş nazirin danışmanlığını icra edən konqresin Türkiyə rəhbəri, professor Zeynəb Karahan Uslu bildirib ki, bu gün ölkələrin hərtərəfli inkişafında insan sərmayəsi böyük yer tutur. Bu sərmayənin ən mühüm hissəsi gənclərdir. Hazırda cəmiyyətimizin hərtərəfli inkişafında gənclik aparıcı rol oynayır, gənclər mühüm dövlət vəzifələrində təmsil olunur, millət vəkili kimi fəaliyyət göstərir. Bununla yanaşı, bu gün gənc nəslin sağlam böyüməsi, hər kəsin təhsil imkanlarından yararlanması, milli dəyərlərimizə sahib çıxılması dövlətlərimizin qarşısında duran mühüm məsələlərdəndir. Gələcəyimizin inkişafı gənclərin əlində olduğundan onların həyat və fəaliyyətinə yönəlik belə konqres təşkili ilə diqqət çəkir. Gənclərlə bağlı məsələlərin həllinə elmi yanaşma isə qəbul ediləcək qərarların gələcək perspektivi baxımından faydalı olacağına böyük inam yaradır. Zeynəb Karahan Uslu Naxçıvanda yüksək səviyyəli tədbirin keçirilməsində əməyi olanlara minnətdarlıq edib.

Türkiyənin Muğla Sıtkı Koçman Universitetinin prorektoru, professor Nevres Hüriyyət Aydoğan və Bandırma On Yedi Eylül Universitetinin prorektoru Zülfikar Bayraktar çıxış edərək səmimi dəvətə və qonaqpərvərliyə görə minnətdarlıq edib, Naxçıvanın sürətlə inkişaf edən müasir bir diyar olduğunu vurğulayıblar. Çıxışlarda qeyd olunub ki, bu gün həm Türkiyə, həm də Azərbaycanda gənclərə böyük diqqət göstərilir, onların cəmiyyətin müxtəlif sahələrində fəaliyyəti təmin olunur. Bu gün öz işinə başlayan III Beynəlxalq Gənclik Araşdırmaları Konqresi də məhz gəncliyin müasir problemlərinin araşdırılmasında böyük əhəmiyyətə malikdir.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, bu gün Naxçıvan Muxtar Respublikasının və Türkiyə Respublikasının ali təhsil müəssisələrinin, eləcə də AMEA Naxçıvan Bölməsinin nümayəndələrinin iştirakı ilə “Naxçıvan” Universitetinin ev sahibliyi etdiyi III Beynəlxalq Gənclik Araşdırmaları Konqresi Naxçıvanda elmi və ictimai mühitin hansı səviyyədə olduğunu əyani şəkildə göstərir. Vaxtilə muxtar respublikada yalnız Naxçıvan Dövlət Universitetində elmi araşdırmalar aparılırdısa, bu gün bu proses AMEA Naxçıvan Bölməsini, “Naxçıvan” Universitetini və Naxçıvan Müəllimlər İnstitutunu da əhatə edib. İndi muxtar respublikanın ali təhsil və elmi müəssisələrində fəlsəfə və elmlər doktoru üzrə kadrlar hazırlanır. Bu, Naxçıvanda elmi mühitin inkişafının, eyni zamanda gənc elmi kadrların hazırlanmasında mövcud potensialın göstəricisidir. III Beynəlxalq Gənclik Araşdırmaları Konqresinin də əhəmiyyəti ondadır ki, gəncliyin müxtəlif istiqamətlər üzrə fəaliyyətini stimullaşdıracaq mövzular araşdırılacaq, suallara aydınlıq gətiriləcəkdir.

Tədbirdə Naxçıvanı tərənnüm edən videoçarx nümayiş etdirilib.

Konqresin təşkilində xüsusi əməyi olan Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbova Təşkilat Komitəsi adından plaket təqdim olunub.

Sonda xatirə şəkli çəkdirilib.

Konqres öz işini bölmə iclasları ilə davam etdirib.

**“Şərq qapısı”**

## Müsabiqənin müsahibə mərhələsi keçirilir

Dövlət orqanlarında inzibati vəzifələrin dördüncü-yeddinci təsnifatına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 5 mart 2018-ci il tarixdə elan edilmiş müsabiqənin müsahibə mərhələsinə start verilib. Müsahibələrdə ilk olaraq Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsində, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində və Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasında işləmək istəyən namizədlər iştirak ediblər. Namizədlərin daha çox sənəd təqdim etdiyi dövlət orqanları sırasında Naxçıvan Muxtar Respublikasının Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirlikləri, Televiziya və Radio Şurası, Dövlət Sosial Müdafiə Fondu və Dövlət Statistika Komitəsi üstünlük təşkil edib.

Müsahibə zamanı namizədə ixtisasına, iddia etdiyi vəzifənin qulluq funksiyasına, xarici dil biliklərinə, informasiya texnologiyalarından istifadə bacarığına və dünyagörüşünə uyğun suallar verilir. Bu mərhələdə obyektivliyin və şəffaflığın təmin edilməsi məqsədilə müsahibə qrupunun tərkibində müstəqil ekspertlər, komissiyanın və dövlət orqanlarının nümayəndələri iştirak edirlər. Həmçinin müsahibə prosesinin videoçəkilişi aparılır.

Müsahibəyə hazırlıq məqsədilə iyunun 23-də komissiyanın iclas zalında müstəqil ekspertlər və dövlət orqanlarının nümayəndələri üçün seminar keçirilib.

Müsahibə başa çatdıqdan dərhal sonra namizədlərin yekun bal arayışları hazırlanır və şəxsi işlərinə əlavə olunur. Qanunvericiliyə uyğun olaraq keçid balını toplamış namizəd haqqında məlumatlar komissiyanın müşayiət məktubu ilə müvafiq dövlət orqanına təqdim olunur. Müsahibənin nəticələri haqqında məlumatlar dərhal komissiyanın rəsmi internet saytında yerləşdirilir.

Qeyd edək ki, 36 dövlət orqanı üzrə müsabiqəyə çıxarılan 302 vakant vəzifənin tutulması üçün 394 namizəd sənəd verib. Test mərhələsində müvafiq keçid balını toplamış 136 namizəddən 131-i müsahibə mərhələsində iştirak etmək üçün sənədlərini komissiyaya təqdim edib. Həmçinin ötənilki müsabiqənin test imtahanlarında qanunvericiliklə müəyyən edilmiş keçid balını toplamış və inzibati vəzifə üzrə sertifikat əldə etmiş 17 namizədin müraciəti nəzərə alınaraq onlara müsahibə mərhələsində iştirak etmələri üçün onlara lazımi köməklik göstərilib. Namizədlərə seçdikləri vəzifə üzrə hazırlaşmaları üçün dövlət orqanları üzrə müsahibə proqramları komissiyanın rəsmi internet saytında yerləşdirilib və ümumi, dövlət orqanı və vəzifə üzrə proqramlarda ədəbiyyat siyahıları göstərilib.

Digər dövlət orqanları üzrə müsahibələr komissiyanın rəsmi internet saytında yerləşdirilmiş qrafikə uyğun olaraq iyulun 3-dək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

# Peşəkar ordusu olan dövlətin müstəqilliyi əbədidir

## Ordumuzun 100 illik yubileyi münasibətilə keçirilən hərbi parad bunu bir daha təsdiq etdi

***İyunun 26-da Bakı şəhərində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə təntənəli hərbi parad keçirildi. Dövlət və hökumət rəsmilərinin, xarici ölkələrin respublikamızdakı səfirlərinin, hərbi attaşelərinin, o cümlədən beynəlxalq təşkilatların əməkdaşlarının və ictimaiyyət nümayəndələrinin izlədiyi parad bir daha Azərbaycanın hərbi gücünü bütün dünyaya nümayiş etdirdi.***

Ordu hər bir ölkənin müstəqilliyinin qarantı, xalqımızın milli ləyaqət rəmzidir. Ötən əsrin əvvəllərində Şərqdə ilk demokratik respublikanın fəaliyyətinin nəticəsində yaradılan milli ordumuz çox qısa müddətdə mühüm formalaşma mərhələsi keçərək ölkəmizin ərazi bütövlüyünün və təhlükəsizliyinin qorunmasına böyük töhfələr vermişdir. Çox çətin tarixi dövrdə yaradılmış Silahlı Qüvvələrimiz cümhuriyyətimizin süqutu ilə fəaliyyətini dayandırsa da, xalqımızın azadlıq arzuları yetmiş illik zaman məsafəsindən sonra yenidən baş qaldırmış, lakin mövcud ictimai-siyasi vəziyyət ordu quruculuğu sahəsində lazımi addımlar atılmasına imkan verməmişdir. Yalnız ümummilli liderimiz Heydər Əliyevin xalqın təkidli tələbindən sonra ali hakimiyyətə qayıdışı ölkəmizdə bu strateji sahənin inkişafını reallaşdırmışdır. Bu da tarixin acı bir qismətidir ki, Azərbaycan müstəqilliyinin ilk illərində ərazi bütövlüyünün pozulması faktı ilə qarşılaşmış, ordu quruculuğuna diqqət yetirilmədiyinə, vahid mərkəzdən idarəçilik olmadığına görə torpaqlarımızın 20 faizi düşmənlərimiz tərəfindən işğal olunmuşdur. Görkəmli dövlət xadiminin 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıdışı cəbhədə atəşkəsin əldə olunması ilə yanaşı, ordu quruculuğu sahəsində köklü islahatların da başlanmasına şərait yaratmışdır. Nəticədə, torpaqlarımızın işğalının qarşısı alınmış, Azərbaycan məhv olmaq təhlükəsindən qurtulmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi 1993-2003-cü illər sabitlik və inkişaf illəri kimi tariximizdə qalmışdır. Məhz bu dövrdə milli ordumuzda böyük kadr islahatları aparılmış, Silahlı Qüvvələrimizin komplektləşdirilməsi sahəsində mühüm addımlar atılmışdır. Ali Baş Komandan keçirilən hərbi paradda bu haqda belə demişdir: ***“2003-cü ildən başlayaraq bütün istiqamətlər üzrə işlər sürətlə gedir, o cümlədən ordu quruculuğu sahəsində. Ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Bizim əsas vəzifəmiz ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir”.***

Son 15 ildə Azərbaycanın iqtisadi qüdrətinin artması ordumuzun da müasir tələblər səviyyəsində formalaşmasına hərtərəfli şərait yaratmışdır. Ordu quruculuğu həyata keçirilən dövlət siyasətində mühüm prioritet istiqamət təşkil etdiyindən ölkəmizdə müdafiə sənayesi inkişaf etdirilmiş,



Silahlı Qüvvələrimizin arsenalı yerli və dünyanın ən müasir hərbi-texniki vasitələri ilə təchiz edilmişdir. Ötən dövrdə şəxsi heyətin peşəkarlığının artırılması, ordunun maddi-texniki vəziyyətinin yaxşılaşdırılması sahəsində görülən işlər Silahlı Qüvvələrimizin gücünü xeyli artırmışdır. Lakin Azərbaycan sülhsevər siyasətini sonadək davam etdirərək mövcud problemin sülh yolu ilə həll olunmasına çalışır. Təəssüflər olsun ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi və beynəlxalq hüququn susqunluğu bu problemin həllini gecikdirir. Lakin ordumuzun son iki il ərzində cəbhədə mütəmadi olaraq düşmənlərimiz tərəfindən törədilən təxribatlara layiqli cavab verməsi Silahlı Qüvvələrimizin hansı gücə malik olduğunu hər kəsə sübut etdi. Ölkə başçısı hərbi paraddakı çıxışında bu məsələyə toxunaraq demişdir: ***“İki il bundan əvvəl Ermənistan xalqımıza qarşı növbəti hərbi təxribat törətmişdir, bizim mövqelərimizi atəşə tutmuşdur, mülki əhaliyə qarşı təcavüz etmişdir. Həm hərbçilərimiz, həm mülki vətəndaşlar şəhid olmuşdur. Azərbaycan Ordusu işğalçını cəzasız qoymadı, onlara layiqli cavab verdi, onları yerinə oturtdu, uğurlu əks-hücum əməliyyatı keçirərək işğal edilmiş torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdi. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi, iki min hektar ərazi təmizləndi. Uğurlu əks-hücum əməliyyatı nəticəsində minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir. Ermənilərin torpaqlarımızda, işğal edilmiş torpaqlarda qazdıqları səngərlərdə bu gün bizim əsgərlərimiz xidmət göstərir. Lələtəpədə bizim bayrağımız dalğalanır. Ağdərə dağlarında bizim bayrağımız dalğalanır. Biz strateji yüksəklikləri əldə etmişik və bu, bizə çox böyük üstünlük verir. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan əsgəri, zabiti, generalı – Azərbaycan Ordusu əsl qəhrəmanlıq, peşəkarlıq, rəşadət göstərmişdir. Bir daha göstərmişdir ki, Azərbaycan xalqı bu işğalla barışmayacaq. Bir daha göstərmişdir ki, Ermənistan tərəfindən onların ordusu ilə bağlı uzun illər ərzində yayılan nağıllar mif idi. Biz bu mifi darmadağın etdik. Biz onların illər boyu yaratdıqları dırnaqarası möhkəm müdafiə xəttini bir neçə gün ərzində yardıq, məhv etdik. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir”.***



Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi, eləcə də milli ordumuzun yaradılmasının 100-cü ildönümü ərəfəsində əldə etdiyimiz daha bir uğurumuz isə Naxçıvanla bağlıdır. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyev ordumuzun Naxçıvanda həyata keçirdiyi uğurlu əməliyyata toxunaraq vurğulamışdır: ***“Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı bu bayram ərəfəsində – keçən ay Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Biz strateji yüksəklikləri zəbt etdik. Biz indi strateji kommunikasiya yollarını nəzarət altında saxlayırıq. Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur. Bir daha onu göstərdi ki, biz istənilən vəzifəni icra edə bilərik və icra edirik, böyük məharətlə və peşəkarlıqla. Bundan sonra Azərbaycan Ordusu hər an hazır olmalıdır ki, öz ərazi bütövlüyünü bərpa etsin. Biz istəyirik ki, münaqişə sülh yolu ilə həll olunsun və Azərbaycanın apardığı siyasət bunun əyani sübutudur. Ancaq bir daha demək istəyirəm ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Biz çox güclü ordu yaratmışıq. Düşmən bilməlidir ki, onun bir dənə də olsun hərbi və ya strateji obyekti yoxdur ki, Azərbaycan Ordusu onu məhv edə bilməsin. Düşmənin bütün hərbi obyektləri, bütün strateji əhəmiyyətli məntəqələri Azərbaycan Ordusu tərəfindən məhv edilə bilər. Bizim bu gün nümayiş etdirəcəyimiz silahlar həm Azərbaycan xalqına, həm düşmənə, həm də bütün dünyaya bunu göstərəcək”.***

Yeri gəlmişkən onu da qeyd edək ki, hərbi paraddan bir gün əvvəl – iyunun 25-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusuna ali hərbi rütbə verilmişdir. Onlar arasında Əlahiddə Ümumqoşun Ordunun iki hərbi qulluqçusu da var. Bundan əlavə, ölkə başçısının həmin gün imzaladığı digər Sərəncamı ilə Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, qarşılarında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Əlahiddə Ümumqoşun Ordunun komandanı “Rəşadət” ordeni, bir hərbi qulluqçu 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, dörd hərbi qulluqçu “Vətən uğrunda”, (onlardan bir hərbi qulluqçu ölümündən sonra), on dörd hərbi qulluqçu “İgidliyə görə”, üç hərbi qulluqçu isə “Hərbi xidmətlərə görə” medalları ilə təltif olunmuşdur.

Bəli, Silahlı Qüvvələrimizin 100-cü ildönümünə həsr olunmuş və hər bir azərbaycanlının böyük qürurla izlədiyi hərbi parada Naxçıvan da öz töhfəsini verdi. 2016-cı ilin aprel döyüşlərində və 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda qaldırılmış Azərbaycan bayraqları hərbi paradda nümayiş etdirildi. Paradı izləyən hər kəsin xalqımıza qələbə sevinci yaşatmış üçrəngli bayrağımızın işğal altında olan digər torpaqlarımızda dalğalanacağına inamı daha da artdı. 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikaların nümayiş olunduğu, milli şahinlərimizin yüksək pilotaj məharəti nümayiş etdirdikləri hərbi parad bütün dünyaya sübut etdi ki, Azərbaycan Ordusu dünyanın ən güclü ordusu sıralarındadır. Ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir. Eyni zamanda bu hərbi parad hərbçilərimizin yüksək vətənpərvərlik və döyüş ruhunu, xalq və ordu birliyinin yenilməzliyini bir daha göstərdi.

Vurğulamaq lazımdır ki, hələ ötən il bütün dünya Naxçıvanda yaradılmış ilk hərbi hissənin 25-ci ildönümü münasibətilə keçirilən möhtəşəm hərbi paradda bu birlik və həmrəyliyə, qüdrətə böyük heyranlıqla şahidlik etmişdi. Həmin paradda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov şəxsi heyətə müraciətlə demişdir: ***“Bu gün sizin qarşınızda mühüm vəzifələr dayanır. Bilirik ki, daim şərəfli əsgər və zabit adını doğrultmağa çalışır, Vətənə, ümummilli lider Heydər Əliyev yoluna sədaqət nümayiş etdirirsiniz. Naxçıvan Muxtar Respublikasının fəal strateji mövqedə yerləşməsi sizin üzərinizə düşən məsuliyyəti daha da artırır. Bu gün Silahlı Qüvvələrimizin muxtar respublika ərazisindəki hərbi hissələrində olan birlik, vətənpərvərlik və yüksək döyüş əhvali-ruhiyyəsi, torpaqlarımızın etibarlı müdafiəsinə və toxunulmazlığına tam təminat verir. İnsanlar muxtar respublika ərazisindəki ordu birləşmə və hissələrinə güvənərək rahat yaşayır, təsərrüfatlarını genişləndirir, muxtar respublikanın inkişafına öz töhfələrini verirlər”.***

Məhz iyunun 26-da paytaxt Bakı şəhərində Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100-cü ildönümü münasibətilə keçirilən hərbi parad onu göstərdi ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir. Bu mənada, ordumuzun gücü imkan verir ki, yaxın gələcəkdə Azərbaycan əsgəri ərazi bütövlüyümüzün təmin olunmasına öz töhfəsini verərək müstəqilliyimizin qarantı olduğunu bir daha bütün dünyaya sübut etsin.

**✍ Səbuhi HƏSƏNOV**

---

## Dünya mediasında “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”in açılış tədbirindən bəhs olunur

Bu yaxınlarda Naxçıvanda keçirilmiş “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”in açılış tədbiri dünya mətbuatında geniş reaksiya doğurmaqdadır. UNESCO-nun təşəbbüsü ilə 1961-ci ildə yaradılmış və 35 ölkədən 44 xəbər agentliyinin bir araya gəldiyi Asiya və Sakit Okean Xəbər Agentlikləri Təşkilatının (OANA) internet portalında bu barədə xəbər dərc olunub. Xəbərdə bildirilir ki, Naxçıvan Dövlət Musiqili Dram Teatrında “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”in təntənəli açılış tədbirində iştirak edən İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev və digər qonaqlar ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoyublar. Qonaqlar ulu öndərin xatirəsinə ehtiramlarını bildirib, Heydər Əliyev Muzeyinə gələrək dahi şəxsiyyətin həyatı, siyasi


OANA THE ORGANIZATION OF ASIA - PACIFIC NEWS AGENCIES

General | Politics | Bussiness | Life | Sports | Science-Health | Technology | Feature&Analysis | Environment | Travel | Entertainment

LATEST BNA Industry Minister Receives UAE... 06/28/2018 - 15:32

"Nakhchivan, the Capital of Islamic Culture-2018" events solemnly open

Submitted by AZERTAC on Thu, 06/21/2018 - 12:29
General
Send to friend: Printer-friendly version

Nakhchivan, June 21, AZERTAC

The opening ceremony of "Nakhchivan, the Capital of Islamic Culture-2018" events has been held in Nakhchivan State Musical Drama Theater.

Prior to the event, Director General of the Islamic Educational, Scientific and Cultural Organization (ISESCO) Abdulaziz Othman Altwaijri, Azerbaijan's Minister of Culture and Tourism Abulfas Garayev, Minister of Culture of Algeria Azzedine Mihoubi, Minister of Culture, Sports and Historical and Cultural Heritage of Guinea Sanosi Bantama Sou, Minister of Education and Culture of Indonesia Muhadjir Effendy, Minister of Culture of Tajikistan Shamsiddin Shodibe, Uzbek Culture Minister Bakhtiyor Sayfullaev, Secretary General of the International Turkic Culture Organization Dusen Kaseinov, President of Azerbaijan National Academy of Sciences Akif Alizade and others put flowers at the monument of national leader Heydar Aliyev.

The event participants then visited Heydar Aliyev Museum and viewed the exhibits highlighting the great leader's life, political and statehood activities.

Chairman of the Supreme Assembly of Nakhchivan Autonomous Republic Vasif Talibov handed a painting of Hachadagh to

OANA President Aslan Aslanov's message regarding the improvement of the organization's activities

Organization of Asia-Pacific News Agencies turns 55

Follow Us

From Secretariat
OANA Latest News
Forum

və dövlətçilik fəaliyyəti ilə bağlı eksponatlara baxıblar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Haçadağın fotoşəklini İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycriyə, Batabatın fotoşəklini isə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının baş katibi Düsen Kaseinova hədiyyə etməsi də xəbərdə qeyd olunub.

Burada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri cənab Vasif Talıbovun çıxışına Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində əlamətdar tarixi günlərin yaşandığını bildirərək, tədbir iştirakçılarını salamlayaraq başlaması və “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018” tədbirlərini açıq elan etməsi barədə də məlumat verilir.

Saytın yerləşdirdiyi xəbərdə, həmçinin Əbdüləziz Osman əl-Tuveycrinin çıxışındakı “Bu möhtəşəm tədbirdə sizinlə olmaqdan böyük məmnuniyyət hissi duyuruq. Naxçıvan 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir. İlk növbədə, mən Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə minnətdarlığımı bildirmək istərdim. O, öz ölkəsinə və eyni zamanda İslam təşəbbüslərinə böyük dəstək verir. Həmçinin səmimi qəlbdən və ürəkdən minnətdarlıq hissi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova da, çox sağ olun, – demək istərdim. Bu cür mükəmməl təşkilatçılıq, təbii ki, danılmazdır”, – sözləri də öz əksini tapıb.

Xəbərdə bunlardan əlavə, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayevin tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri olmuş Naxçıvanın bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasındakı özünəməxsus rolu haqqındakı çıxışı, Naxçıvan Dövlət Filarmoniyasının tədbirdəki konsert və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”in açılış tədbirində iştirak üçün Naxçıvana gəlmiş qonaqların şərəfinə rəsmi ziyafət verilməsi haqqında məlumatları da oxumaq mümkündür.

**✍ Əli CABBAROV**

# Almaniya vətəndaşı Kai Qauqer Naxçıvanda olan quş növlərindən yazdı



*Bu il mayın 27-28-də Almaniya vətəndaşı Kai Qauqerin rəhbərliyi ilə Almaniya, Avstriya, Danimarka və Böyük Britaniyadan olan tədqiqatçılar Naxçıvan Muxtar Respublikasındakı quş növlərini görmək üçün burada səfərdə olmuşlar.*

Kai Qauqer *www.birdingaze.blogspot.com* internet səhifəsində Naxçıvan səfəri barədə hesabat yerləşdirmişdir. Həmin hesabatı təqdim edirik.

Nahar yeməyindən sonra Bakı şəhərindən Naxçıvana yola düşdük. İki gün burada səfərdə olduq. Səhər erkən ilk hədəfimiz Aladöş çərənçi (Radde's Accentor) quşunu görmək idi. Batabat gölünün üzərindəki rəngli yarımalp çəmənliklərini yoxladıqdan sonra oxuyan Aladöş çərənçi quşunu gördük və quşun yaxından şəkillərini çəkə bildik. Batabatda gördüyümüz digər quşlar isə Bağ vələmirquşu (Emberiza hortulana) və Qırğıyaoxşar pöhrəcil (Sylvi nisoria) idi. Orada digər quşlar da var idi. Həmçinin ərazidə iki Kiçik Qartal da (Clangapomarina) müşahidə etdik.

Ərazidə Saqqallı leşyeyən (Gypaetusbarbatus) və Berqut qartalı (Aquila chrysaetos), dağlardan yavaş-yavaş aşağı endikcə isə Ağboğaz bülbül (Irania gutturalis), Böyük qayalıq sittası (Sitta tephronota), Səhra kəkliyi (Ammoperdix griseogularis), Səhra qarquşu (Bucanetes githagineus) və Monqol qırmızıqanad hörücüsü (Bucanetes mongolicus) quşlarını gördük. Günün ikinci hissəsi biz gözəl vadiyə getdik və orada Səhra zəvzəyi (Hippolais languida), Qayalıq vələmirquşu (Emberiza buchanani) və İran Qızılquyruq çaxraqcıl (Oenanthe chrysopygia) quşlarını, həmçinin həmin ərazidə kiçik qrupdan ibarət Bezoar keçilərini də müşahidə edə bildik.

Növbəti gün Naxçıvan Muxtar Respublikası ərazisindəki düzənlik hissə olan Nehrəm dağlarına səfər etdik. Gəzinti zamanı yaxından Səhra kəkliyi (Ammoperdix griseogularis), Şahin (Falco peregrinus), Aralıq dənizi qızılquşu (Falco biarmicus feldeggi), Səhra qarquşu (Bucanetes githagineus), Qayalıq vələmirquşu (Emberiza buchanani), İran Qızılquyruq çaxraqcılı (Oenanthe xanthoprymna chrysopygia) və Qaraqarın bağrıqara (Ptrocles orientalis) quşlarını yaxından görə bildik. Sonra biz məşhur Haçadağ ətrafına doğru hərəkət etdik. Həmin ərazidə çoxlu sayda Qısabarmaq sərçə (Calandrella brachydactyla) və İkixallı torağay (Melanocorypha bimaculata) quşlarının, xüsusilə də ərazidə ov edən Qırmızıqanad mərciməkquşlarının (Rhodopechys sanguineus) olması təəccübümüzə səbəb oldu. Sonuncu və mühüm ərazi hesab edilən Darıdağ ərazisində bir dəqiqə içərisində balalarını yedizdirən çoxlu Səhra çaxraqcılı (Rhodospiza obsoleta) gördük.

Bütün bunlar Naxçıvanda mükəmməl quş gəzintisinin gözəl nəticəsi idi.





Səhra çaxraqcılı


Qırmızıqanad mərciməkquşu


Qızılquyruq çaxraqcıl


Aralıq dənizi qızılquşu


Aladöş çərənçi


Batabat gölünün üzərində olan çəmənlik


Səhra kəkliyi


Nehrəmdəki dağlıq ərazi


Səhra zəvzəyi


Böyük qayalıq sittası

## *“Nağdsız ödəyin, hədiyyə qazanın!”* adlı həvəsləndirici tədbirin doqquzuncu tirajı keçirilib

*Naxçıvan Muxtar Respublikasında artıq ənənə halını almış “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbirin doqquzuncu tirajının qalibləri müəyyənləşib. 1 yanvar 2018-ci il tarixdən 1 iyun 2018-ci il tarixədək daha çox nağdsız ödənişlər edən muxtar respublika sakinləri bu tirajın nəticələrinə görə qiymətli həvəsləndirici hədiyyələrlə mükafatlandırılıblar. Hədiyyə alanlar arasında Naxçıvan şəhəri ilə yanaşı, Şərur, Babək, Ordubad, Culfa, Şahbuz, Kəngərli və Sədərək rayonlarının sakinləri də vardır.*



Dünən Naxçıvan Biznes Mərkəzində hədiyyələrin təqdim olunması ilə əlaqədar keçirilən tədbirdə çıxış edən vergilər nazirinin müavini, Baş vergi xidməti müşaviri Fərrux Əkbərov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş 2 mart 2016-cı il tarixli “2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram”da Vergilər Nazirliyinə nağdsız ödənişlərin həcminin artırılması məqsədilə kart sahibləri arasında həvəsləndirici tədbirlərin keçirilməsi tapşırılıb. Qeyd olunub ki, 1 iyun 2018-ci il tarixə muxtar respublikanın ticarət və iaşə obyektlərində 1266 ədəd POS-terminal quraşdırılıb.

Tədbirdə çıxış edən Maliyyə Bazarlarına Nəzarət Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi Tapdıq Əliyev vurğulayıb ki, müasir dövrdə maliyyə infrastrukturunun əsas tərkib hissələrindən biri olan elektron ödəniş sistemi maliyyə sabitliyinin və ümumi iqtisadi inkişafın təminatında mühüm əhəmiyyət kəsb edir. Vurğulanıb ki, muxtar respublikada nağdsız dövriyyənin stimullaşdırılması istiqamətində aparılan maarifləndirici və stimullaşdırıcı tədbirlər öz müsbət nəticələrini verməkdədir. Belə ki, muxtar respublika üzrə 2018-ci ilin ilk 5 ayı ərzində ödəniş kartları vasitəsilə nağdsız ödənişlərin həcmi 15 milyon 294 min manata çatıb.

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Qanunsuz sahibkarlığın aşkar edilməsi şöbəsinin rəisi Rəşad Əliyev tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbirin 9-cu tirajında 312 muxtar respublika sakininə, o cümlədən Naxçıvan şəhəri üzrə 59 şəxsə qiymətli hədiyyələr təqdim olunacaq. Bu hədiyyələr 400 manatdan yuxarı həcmdə nağdsız ödənişlər edən şəxslərə üç meyar əsasında müəyyənləşdirilib. Hədiyyə alanlar arasında təhsil, səhiyyə, mədəniyyət işçiləri, dövlət qulluqçuları, təqaüdçülər, tələbələr və digər şəxslər vardır.

Həmin gün Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın Şərur, Sədərək, Kəngərli rayonlarında da nağdsız ödənişlərdə fəallıq göstərmiş vətəndaşlara hədiyyələrin təqdim olunması tədbirləri keçirilib. Bu tədbirlərdə çıxış edən Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin rəisi Hafiz İsmayılbəyli bildirib ki, muxtar respublikamızda nağdsız ödənişlərin həcminin artmasında yaradılmış infrastruktur imkanları ilə yanaşı, maarifləndirici tədbirlərin də mühüm əhəmiyyəti vardır. Belə ki, ötən dövrdə bu sahədə ictimaiyyətin maarifləndirilməsi istiqamətində geniş təbliğat-təşviqat işləri aparılıb.

Qeyd edək ki, analoji tədbirlər bu gün Babək, Culfa, Ordubad və Şahbuz rayonlarında da keçiriləcək.

**Xəbərlər şöbəsi**

# Yaşıl kart sığortası rahat səyahət üçün vacib şərtdir

*Yaşıl kart sığortası nədir? Bu sığorta növü hazırda, əsasən, Avropa ölkələrində geniş tətbiq olunan Yaşıl kart sistemi buna qoşulmuş bütün ölkələrdə tanınan vahid mülki məsuliyyət sığortası növüdür.*

Səyahətçilər avtomobillərlə bir ölkədən başqa bir ölkəyə səyahət etdiyi zaman tətbiq olunan Yaşıl kart sığortası bir çox cəhətlərinə görə sürücülər üçün çox faydalıdır. Belə ki, ölkə ərazisində hərəkət zamanı tələb olunan standart mülki məsuliyyət sığortasından fərqli olaraq müəyyən müddətə belə sığorta şəhadətnaməsini alan avtonəqliyyat vasitəsi sahibləri xarici ölkələrə hər gedişi üçün yeni müqavilələr bağlamaqdan azad olurlar. Başqa sözlə, Yaşıl kart bu sistemə qoşulmuş ölkələrin ərazisində tanınan bir mülki məsuliyyət sığortası şəhadətnaməsi kimi hər bir sığortalıya rahat səyahət zəmanəti verir.

Bu sığorta növünün hüquqi bazasına gəldikdə, Yaşıl kart sistemi ilə əldə olunan beynəlxalq sığorta şəhadətnaməsinin yüksək səviyyədə etibarı vardır. Belə ki, hazırda “Yaşıl Kart” haqqında sazişin iştirakçıları olan 48 ölkənin hər hansı biri tərəfindən verilmiş avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığorta şəhadətnaməsi həmin sazişin iştirakçısı olan digər bütün dövlətlərin ərazisində etibarlı sayılır. 1 yanvar 1953-cü il tarixindən tətbiq olunmağa başlanılmış bu sığorta sistemi Azərbaycan Respublikasında 2016-cı ilin əvvəlindən tətbiq olunur. Belə ki, “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununa 2014-cü il 25 dekabr tarixdə edilmiş dəyişikliklərə əsasən Azərbaycanın Yaşıl Kart sisteminə qoşulması ilə bağlı Qanuna yeni müddəalar əlavə edilmişdir. Qanuna görə, Azərbaycan vətəndaşları xaricə səfərə çıxarkən ölkəmizdəki sığorta agentliyi ilə bağladıqları Yaşıl kart sığortası zamanəti ilə səyahət etdikləri ölkələrdə törətdikləri yolnəqliyyat hadisələri nəticəsində vurduqları zərərin əvəzi hadisənin baş verdiyi ölkənin daxili qanunvericiliyinə uyğun qaydada ödənilir.

Bu yeni sığorta növü muxtar respublikamızın sakinlərinə də mühüm üstünlüklər vəd edir. Belə ki, hər gün çox sayda naxçıvanlı turist və işgüzar adamlar müxtəlif məqsədlərlə öz avtomobilləri ilə xarici ölkələrə səyahət edirlər. Bizimlə qonşu olan Türkiyə və İranda da bu sığorta sistemi tətbiq olunduğundan, ölkəmizdən çıxmadan gördüyümüz hazırlıq işləri zamanı Yaşıl kart sığorta müqaviləsini də bağlayıb rahat səyahətə yollanmaq olar. Bu sığorta növünün digər bir rahatlığı isə ondan ibarətdir ki, sürücülər və onlarla bərabər olan digər sərnişinlər sərhəd-keçid məntəqələrində vaxt itirmirlər. Bu isə turizm mövsümü başlayanda müəyyən pik saatlarda çox tez-tez müşahidə olunan haldır. Digər bir fayda isə səyahət edərkən bəzən bir deyil, iki və daha çox ölkənin ərazisinə daxil olduqda bu sığorta müqaviləsini bağlamış olan sürücülərin daha az sığortahaqqı ödəmələridir. Məsələn, bu gün daha çox istifadə olunan fərdi avtonəqliyyat vasitələrindən mühərrikinin iş həcmi 1501-2000 kubsantimetr olan atomobillərlə biraylıq xaricə səyahət edən sürücü müvafiq tarifə görə cəmi 17 manat ödəməklə əldə etdiyi Yaşıl kart sığorta şəhadətnaməsi ilə bütün səyahət müddəti boyu öz mülki məsuliyyətini sığortalamış olur. Yaşıl kart sığorta müqaviləsinin səyahətin müddətinə görə bağlanılması sürücülərə də rahatlıq gətirir. Belə ki, mövcud qanunla vətəndaşların xaricə səyahət müddətinə və intensivliyinə görə də 1, 3, 6 və 12 ayadək müddətdə sərfəli sığorta müqavilələri bağlamaq mümkündür.

Müasir dövrün tələblərinə uyğun olaraq ölkəmiz inkişaf etdikcə sığorta sistemində də beynəlxalq qanunlara qoşulur. Yaşıl kart sığorta sisteminin ölkəmizdə və muxtar respublikamızda tətbiqi də vətəndaşlarımızın səyahət imkanlarını artıran, xaricə səfərləri zamanı baş verə biləcək gözlənilməz hadisələr zamanı dəyən zərərlərin aradan qaldırılmasına zəmanət verən çox mühüm yeniliklərdəndir.

**Əli CABBAROV**

# Növbəti seminar-treninq olub

***Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyində muzey bələdçiləri üçün seminar-treninq keçirilib.***

Nazirliyin sisteminə daxil olan muzeylərin bələdçilərinin iştirak etdiyi tədbirdə nazirliyin mədəni irs və muzey işi üzrə baş məsləhətçisi Qumral Əsədova çıxış edərək bildirib ki, keçirilən seminar-treninqlərdə muzey bələdçiləri vəzifə funksiyalarını dərindən öyrənməyə səy göstərməklə yanaşı, muzey işi haqqında ətraflı məlumat əldə etmiş olurlar. Eyni zamanda seminar-treninqlər muzey işçilərinin muxtar diyarımızın bütün bölgələrində yerləşən bu mədəniyyət müəssisələri ilə tanış olmalarına şərait yaratmaq baxımından da əhəmiyyətlidir. Belə tədbirlərdə muzey bələdçilərinə bu sahədə həyata keçirilən yeniliklərdən söhbət açılır, onların sualları cavablandırılır.

Bildirilib ki, muxtar respublikamızda muzey fəaliyyətinin yüksək səviyyədə təşkil edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Görülən işlər qarşıya mühüm vəzifələr qoyur. Muzey bələdçisi eksponat toplanması işinə də öz töhfəsini verməyə çalışmalıdır.

Sonra muzeyin ekspozisiyasına baxış olub, ekskursiya müzakirə edilib.

Həmin gün analoji tədbir Ordubad şəhərində yerləşən Akademik Yusif Məmmədəliyevin ev-muzeyində davam etdirilib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Əli RZAYEV**

Yeni nəşrlər

# Ürəyi Vətən sevgisi ilə dolu şair

***Filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Dövlət Universitetinin dosenti Aypara Behbudovanın "Vətənə bağlı şair ömrü" və onun tərtibçiliyi ilə nəşr edilmiş "Vaqif Məmmədov xatirələrdə" kitabları mənə tarix üzrə fəlsəfə doktoru, şair-publisist, mərhum Vaqif Məmmədovla tanışlığımızı xatırlatdı. Bu tanışlıq 2003-cü ildə onun Bakıda "Şirvannəşr"də çap olunmuş "Arazdan keçə bildim" kitabı haqqında "Şərq qapısı" qəzetində dərc etdirdiyim resenziyadan sonra olub.***

O dövrdən dünyasını dəyişənə kimi – 2016-cı ilə qədər Vaqif müəllimlə dostluq etmişik. Kərki kəndindən yazı hazırlayarkən onunla saatlarla söhbətim olub. Demək istəyirəm ki, o, şair kimi şair, publisist kimi publisist, alim kimi alim, müəllim kimi müəllim olduğu qədər də səmimi və qayğıkeş dost idi. Bu səmimiyyəti, qayğıkeşliyi onun ailəsi ilə yanaşı, çalışdığı kollektiv, mühazirə oxuduğu tələbələr, dostluq etdiyi insanlar da təsdiq edərlər. Onu tanıyan insanların yaddaşında da bu, belə qalıb. Yeri gəlmişkən onu da deyim ki, "Vətənə bağlı şair ömrü" kitabında da, xatirələrdə də böyük səmimiyyət var. Səmimi insan haqqında səmimi deyimlər oxucunu ilk anda təsirləndirir. Bu da, ilk növbədə, Vaqif müəllimlə bağlı 15 il tədqiqatlar aparan Aypara Behbudovanın öz müəlliminə ehtiramının ifadəsi kimi diqqəti çəkir: "Mənim Vaqif müəllimdə bir insan kimi, müəllimim kimi qibtə edib dəyərləndirdiyim onun saf və təmiz mənəvi aləmi, şairlik dünyasıdır. O, sözü ilə əməli bir olan insan idi. Onun şeirlərində insanın hisslərinə, arzularına, duyğularına qarşı durmuş dünyanın özü ilə üzbəüz danışmaq gücü var idi. Vaqif Məmmədov poeziya tarixində nadir hisslərin ifadəsinə görə yaşamaq haqqını qoruyub saxlaya bilən şairlərdən biri, ən əsası, bu dünyaya ancaq səmimiyyət gətirdiyini təsdiq edən ziyalı idi".



Müəllif Vaqif Məmmədovdan bəhs edən "Əbədiyyətə qovuşan şair", həmçinin şairin "Bu dünyanın sevinci nə, qəmi nə" kitablarına yazdığı ön sözlərdə də Vaqif Məmmədov xarakterini həyati cizgilərlə təsvir edir. Öyrənirik ki, ömrünün 40 ildən artıq bir hissəsini şərəfli müəllim peşəsinə həsr edən, dərs dediyi gənclərin bilikli, savadlı yetişməsi ilə yanaşı, həm də onların dövlətçiliyimizə, müstəqilliyimizə bağlı ruhda formalaşmasına çalışan Vaqif Məmmədov 1998-2015-ci illərdə Naxçıvan Dövlət Universitetinin "Qeyrət" nəşriyyatının direktoru vəzifəsində çalışıb. 1995-2000-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı olub. 2005-ci ildə Naxçıvan Muxtar Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. 1970-ci ildən bədii yazıları mətbuatda çap edilən, 40-a yaxın bədii-publisistik kitabın müəllifi olan Vaqif Məmmədovun şeirləri müxtəlif dillərə tərcümə olunub. Türkiyə, İran, İraq, Özbəkistan, Rusiya, Ukrayna, Belarus, Yunanıstan, Almaniya, Bolqarıstan, Pakistan və ABŞ-da çap edilib. O, bir sıra beynəlxalq konfransların iştirakçısı və qalibi olub.

Vaqif Məmmədov 1988-ci ildə başlanan hadisələr dövründə həm də doğulub böyüdüyü Sədərəkdə əsgər ömrü yaşayıb. O illərdə bir gün olsun belə, Sədərəkdən kənara çıxmayıb. Həmyerliləri ilə birgə olub. Daha doğrusu, öndə gedib. Vətənpərvərlik hissləri onu cəbhənin ön sıralarına aparıb. Müəllif bu barədə elə yanğı ilə danışır ki, sanki onun özü də Vaqif müəllimlə birgə bu hadisələrin içində olub.

Aypara Behbudovanın bu fikirləri ilə hamımız razılaşarıq ki, o, şeirlərində, sadəcə, Vətən torpağını tərənnüm etməyib, həm də bu torpağın qədrini bilməyə, onu qorumağa, ona dikilən yad gözlərə qarşı amansız olmağa çalışıb. Vətənin bölünməsinin böyük faciəsini həssaslıqla duyan şair bədii sözün qüdrəti ilə xalqın parçalanmasına etirazını bildirib:

*Taxıl zəmisinə düşmən od atıb,*
*Yanır tabağımda çörəyim, yanır.*
*Alov dilimləri lap ərşə çatıb,*
*Elə bil, cızhacız ürəyim yanır.*

"Düşünən və düşündürən şair", "Sənətə vaqifliyin təzahürü", "Elmlə poeziyanın vəhdəti", "Bədii düşüncənin sərhədləri genişlənir" və sair başlıqlar altında verilmiş yazılarda Vaqif Məmmədovun vətənpərvərlik ruhu, doğma torpağa bağlılıq hissləri əksini tapıb. Müəllif "Bədii düşüncənin sərhədləri genişlənir" fəslində yazır: "Vaqif Məmmədov şeir-sənət yoluna ürəyinin istəyi ilə qədəm qoyduğunu ilk şeirlərindən bəyan etmiş, eyni zamanda ağlamağın, gülməyin, sevinc və kədərin, bir sözlə, bütün hiss və duyğuların, bütün istəklərin ürəkdən gəldiyini, bu ürəkdə isə yalnız bir varlığın – Vətənin yerləşdiyini belə ifadə edirdi:

*Ürəyimsiz ağlamıram, gülmürəm.*
*Hər istəyim ürəyimdə birləşir.*
*Böyükmüdür, kiçikmidir, bilmirəm,*
*Ürəyimə təkcə Vətən yerləşir.*

Şairin həyat və yaradıcılığına dair biblioqrafik göstəricilər, şeir və publisistik kitabları, tərtib etdiyi və haqqında yazılan nəşrlər, monoqrafiya, dərs vəsaiti barədə məlumatların yer aldığı yeni nəşr müəllifin uzunillik zəhmətinin bəhrəsi kimi diqqəti çəkir.

"Vaqif Məmmədov xatirələrdə" kitabında görkəmli elm xadimlərinin, şair və yazıçıların, dostlarının, dərs dediyi tələbələrin, ailə üzvlərinin xatirələrini həyəcansız oxumaq olmur. Bu xatirələrin hər birində gözəl ziyalı, layiqli vətəndaş, istedadlı şair haqqında ürək sözləri oxucunu düşünməyə sövq edir: Bu dünyaya gələn insan ancaq yaxşılıq haqqında düşünməlidir. Həyat yaxşıların qədrini bilir. Bu kredo bütün dövrlərə aid olub. Bu həqiqəti dərk edənlər yaddaşlarda əbədi yaşamaq hüququ qazanırlar. Akademik İsa Həbibbəylinin "Vaqifanə ömrün anları" adlı yazısında dediyi kimi: "Sözün əsl mənasında, açıqbaxışlı, səmimi insan olan Vaqif Məmmədov təmkinli, ağıllı və mənəviyyatlı Vaqifanə ömrünü yaşamışdır". Belə ömrü əsl vətəndaşlar yaşayırlar.



Filologiya üzrə fəlsəfə doktoru Şərəbanı Məmmədovanın yazdığı "Ölümə baş əyməyən şair" adlı xatirələri də həyəcansız oxumaq olmur. Qəlbi Vətən eşqi ilə döyünən şairin qayğıkeşliyindən, təmənnasızlığından ürəkdolusu bəhs edən Şərəbanı xanım yazır ki, başqalarının uğurlarına qəlbən sevinən insan idi Vaqif müəllim. Etdiyi xeyirxahlıqlardan, yaxşılıqlardan zövq alaraq yaşayırdı Vaqif müəllim. Təvazökarlığı, alicənablığı ilə müəllim adının, müəllimlik peşəsinin verdiyi qürurla, ədəb-ərkanla, insanlara səmimi münasibəti ilə seçilirdi Vaqif müəllim.

*Nə çörəyə, nə şöhrətə,*
*Nə dövlətə, nə sərvətə,*
*Nə söhbətə, nə minnətə*
*Başımı heç əyməmişəm,*
*Ölümə də baş əymərəm.*

Ömrü boyu belə amallarla yaşayan, ölümə də baş əyməyən Vaqif Məmmədovu əcəl ömrünün 67-ci baharında bizdən aldı. Ancaq əməlləri ilə onu tanıyanların qəlbində özünə isti bir yuva qurdu. Bunu mərhum şairə həsr olunmuş və kitabda yer almış şeirlərdə də görürük:

*İlham üstə bir çağlayan sel idi,*
*Hər sözündə haqqı yazan əl idi,*
*Misra-misra ötən sözü dil idi,*
*Ağrı dağın duman aldı, çən aldı,*
*Vaqif köçdü, dünya Vaqifsiz qaldı.*

Bu gün onun 70 yaşını onsuz qeyd edirik. Aypara Behbudovanın oxuculara təqdim etdiyi hər iki kitabın bir elegiya təsiri bağışlamasının səbəbi, bəlkə də, elə bundadır. Bu elegiyanın təsirindən hələ də çıxmamışam. Oxuculara da şairin 70 illik yubileyinə qiymətli töhfə olan bu kitablarla tanış olmağı arzulayardım, Vaqif Məmmədovu daha yaxından tanımaq üçün, Aypara xanımın çəkdiyi zəhməti dəyərləndirmək üçün.

**Muxtar MƏMMƏDOV**

# Uşaqların icbari dispanserizasiyası davam etdirilir



Son illər uşaq əhalisinin, xüsusən məktəbyaşlı uşaqların sağlamlığının qorunmasına, onların müayinə və müalicəsinə, dispanserizasiyasının təşkilinə xüsusi diqqət yetirilir. Bu tədbirlər "Uşaqların icbari dispanserizasiyası haqqında" 2013-cü il 5 mart tarixli Azərbaycan Respublikası Qanununun və ölkə Prezidentinin 2013-cü il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın tələblərinə uyğun şəkildə icra olunur.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin Baş məsləhətçi-pediatrı, Azərbaycan Respublikasının Əməkdar həkimi İbrahim Ağayevin verdiyi məlumata əsasən muxtar respublikada cari ilin aprel-may aylarında 44 min 175 uşaq müayinəyə cəlb edilib, 858 uşaqda xəstəlik və xəstəliyə meyillilik aşkar edilərək dispanser qeydiyyatına götürülüb. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim briqadası tərəfindən Naxçıvan şəhərindəki 20 tam orta məktəbdə 11 min 956 uşaq dərindən tibbi müayinə olunub, aşkar edilən xəstələr dispanser müşahidəsinə götürülüb. Eyni zamanda sahə həkim briqadaları tərəfindən evlərdə dispanserizasiya işləri aparılıb. Uşaqların icbari dispanserizasiyası zamanı valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud olan uşaqların dispanserizasiyasına daha həssaslıqla yanaşılıb. Müayinə edilənlərin elektron bazada reyestri yaradılıb.

**Hüseyn ƏSGƏROV**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Avtonəqliyyat vasitələri fiziki şəxslər tərəfindən hansı müddətə və hansı qaydada xarici ölkəyə aparıla bilər?*

***Cavab:*** Fiziki şəxslər tərəfindən avtonəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 oktyabr 2013-cü il tarixli 305 nömrəli qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nın 4-cü bəndinə uyğun olaraq tənzimlənir.

Belə ki, yuxarıda qeyd olunan Qaydaların 4.8-ci bəndinə əsasən fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasında daimi qeydiyyatda olan avtonəqliyyat vasitələrinin 2 (iki) il müddətinə gömrük ərazisindən kənara müvəqqəti aparılmasına və ya qeydiyyatdan çıxarılması şərtilə daimi aparılmasına icazə verilir.

Gömrük ərazisindən kənara müvəqqəti olaraq aparılan avtonəqliyyat vasitəsi müəyyən olunmuş müddət bitmədən geri qaytarılmalı, yaxud da gömrük orqanlarına bəyan olunmaqla digər gömrük proseduru altında yerləşdirilməlidir.

Qaytarılması məcburi olan, yəni müvəqqəti aparılmış nəqliyyat vasitələrinin müəyyən olunmuş müddət pozulmaqla gömrük ərazisinə qaytarılması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 499-cu maddəsinə əsasən inzibati məsuliyyətə səbəb olur. Bu zaman pozulmuş müddət nəzərə alınmaqla fiziki şəxslər 50 manatdan 750 manatadək, yaxud nəqliyyat vasitəsinin dəyərinin 20 faizindən 100 faizinədək məbləğdə cərimə edilir, həmçinin inzibati xətanın bilavasitə obyekti olan nəqliyyat vasitələri müsadirə olunur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Azərbaycan Respublikasının Təhsil Nazirliyi

### *Naxçıvan Dövlət Universiteti 2018-2019-cu tədris ilində aşağıdakı ixtisaslar üzrə ikinci ali təhsil almaq üçün qiyabi şöbəyə tələbə qəbulu elan edir*

| № | İxtisaslar | Qəbul planı |
|---|---|---|
| 1. | Riyaziyyat və informatika müəllimliyi | 15 |
| 2. | Riyaziyyat müəllimliyi | 15 |
| 3. | İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi | 15 |
| 4. | İqtisadiyyat | 20 |
| 5. | Mühasibat uçotu və audit | 20 |
| 6. | Beynəlxalq münasibətlər | 15 |
| 7. | Tarix müəllimliyi | 20 |
| 8. | Azərbaycan dili və ədəbiyyat müəllimliyi | 20 |
| 9. | Hüquqşünaslıq | 45 |
| 10. | Xarici dil müəllimliyi (ingilis dili) | 20 |
| 11. | Musiqişünaslıq | 15 |
| 12. | Biologiya müəllimliyi | 15 |
| 13. | Kimya müəllimliyi | 15 |

İkinci ali təhsil ödənişli formada müəssisə, təşkilat, idarə və ayrı-ayrı vətəndaşlarla Naxçıvan Dövlət Universiteti arasında bağlanmış fərdi müqavilələr əsasında həyata keçirilir. İkinci ali təhsil müvafiq ixtisas üzrə bakalavr (və ona bərabər tutulan) səviyyəsi üçün mövcud olan baza təhsil proqramlarındakı ümumi və ixtisas fənləri bölümlərini əhatə etməklə, tələbənin əvvəlcə aldığı baza təhsil proqramı ilə yeni ixtisasın baza təhsili proqramı arasındakı fərq nəzərə alınmaqla xüsusi hazırlanmış təhsil proqramları əsasında aparılır. Şəxsin ikinci ali təhsil üzrə seçdiyi ixtisas onun tutduğu vəzifənin profilinə uyğun olmalıdır.

İkinci ali təhsil almaq istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- rektorun adına ərizə;*

*- ali təhsil haqqında sənədin (diplomun) və qiymət kitabçasından çıxarışın (diploma əlavə) notariusda təsdiq olunmuş surətləri;*

*-3x4 santimetr ölçüdə 6 ədəd fotoşəkil;*

*-sağlamlıq haqqında arayış;*

*-əmək kitabçasından çıxarış;*

*-şəxsiyyət vəsiqəsinin surəti;*

*-şəxsiyyət vəsiqəsi və diplom şəxsən təqdim olunur.*

Xarici ali təhsil müəssisələrinin məzunları aldıqları ixtisasların Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyi barədə Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamə təqdim etməlidirlər.

Sənədlər 2018-ci il iyul ayının 2-dən iyul ayının 20-dək hər gün (istirahət günlərindən başqa) saat $10^{00}$-dan $16^{00}$-dək Naxçıvan Dövlət Universitetində qəbul edilir. (Əsas bina, 2-ci mərtəbə, 207 saylı otaq).

İkinci ali təhsil almaq üçün universitetə sənəd vermiş şəxslərlə müəyyən edilmiş qaydada müsahibə aparılır. Müsahibədən uğurla keçənlər müqavilə yolu ilə müvafiq ikinci ali təhsil ixtisası üzrə tələbələr sırasına qəbul edilirlər. Təhsil haqqı müqavilə əsasında müvafiq ixtisaslar üzrə uyğun qaydada ödənilir.

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi, əsas bina***
***Telefon: 545-45-59***

## *İtmişdir*

Naxçıvan şəhəri, 20-ci məhəllə, ev 131-də yaşayan Məmmədov Hafiz Kamil oğlunun adına verilmiş AA-003205 inventar nömrəli plan ölçü və MH-0034836 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Mətanət Məmmədova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 469